İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün, çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün, həyat səhifələrimizi parlaq imza sahiblərinin qələmi ilə yazmaq üçün

*parlaq imzalar*

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

# LEYSANLARA DÜŞDÜM

(şeirlər)

AYDIN XIRDALANLI

parlaq imzalar

| | |
|---|---|
| Buraxılışa məsul: | Nurman TARİQ |
| Redaktor: | Pünhan ƏZİM |
| Mətni hazırlayan: | Vüsalə BABAYEVA |
| Yekun oxunuş: | Rəşad DAĞLI |
| Korrektor: | Zülfi XƏLİLOV |
| Bədii və texniki tərtibat: | İsmayıl SÜLEYMANLI |
| Üz qabığının dizaynı: | Ramin HƏSƏNƏLİZADƏ |

**Aydın Xırdalanlı**
**LEYSANLARA DÜŞDÜM**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2021, 80 səh. / II nəşr

**© Aydın Xırdalanlı / 2020**
**© Parlaq İmzalar MMC / 2020**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 96
Müasir Azərbaycan Ədəbiyyatı | 3

ISBN 9952525793

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
fb.com/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "Nurlar" NPM
Çap tarixi: 16.06.2021
Sifariş №: 003(03)/21

# Mündəricat


Aydın Xırdalanlı ________________ 7

Əlamətdir qiyamətdən ________________ 9
Məhşərdə ________________ 11
Nədir ________________ 12
İstəmirəm ________________ 13
Atdım ________________ 14
Tutasan ________________ 16
Çəkdi ________________ 17
Mənim istəkli yarımsan ________________ 18
Olarkən ________________ 20
Keç günahımdan mənim ________________ 21
Aparsın ________________ 22
Günün olsun ________________ 23
Dünya ________________ 24
O gözəl dilbər idi ________________ 26
Sən məni hər cürə aldatdın ________________ 28
Sənin olsaydı ________________ 30
Nağıla ________________ 32
Baxsın ________________ 34
Fədayədən ________________ 35

Gəlmisən ____ 36
Eyləməyəydin ____ 37
Yanıltmac ____ 38
Görmədim ki, görmədim ____ 40
Yazıdı bu ____ 42
Leysanlara düşdüm ____ 43
Mərhələlər var ____ 44
Musiqini ____ 46
Bəndəliyin şərti itaətdir ____ 48
Veririk ____ 51
Bu şəkildə (1) ____ 52
Qopacaqdır hələ çox zəlzələlər ____ 54
Əl ____ 56
Bu şəkildə (2) ____ 57
Deyərəm ____ 58
Qamətin şahanə tut ____ 59
Sən ____ 60
Apardı getdi ____ 62
Ötən günlərini ____ 65
Baxıb ağlar ____ 66
Abu-həyatsan ____ 68
Eylədi getdi ____ 69
Qəzəl ____ 70
Vətən sevgisi ____ 71
Biri vardır, biri yox ____ 72
Aydına Pünhandan ithaf ____ 73

Yarımçıq qalmış əlyazmalar ____ 74

## AYDIN XIRDALANLI

Quliyev Aydın Hacı oğlu 31 iyul 1977-ci ildə Abşeron rayonunun Xırdalan şəhərində anadan olmuşdur.

1984-cü ildə Xırdalan şəhər 1 nömrəli tam orta məktəbin I sinfinə getmiş, 1994-cü ildə XI sinfi bitirmişdir.

1987-ci ildə Xırdalan Mədəniyyət evi nəzdində olan qarmon kursuna daxil olmuşdur.

1992-ci ildə həmin kursu əla qiymətlərlə tamamlamışdır.

1997-ci ildə Ə. Hüseynzadə adına Azərbaycan Dövlət İncəsənət Universitetinin Mədəni-maarif işi fakültəsinin "Kütləvi tədbirlər rejissorluğu" ixtisasına daxil olmuşdur.

2001-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlamışdır.

1998-2001-ci illərdə Xırdalan Cümə məscidində nəzarətçi kimi işləmişdir.

Meyxana sənətinə 1996-cı ildən başlamışdır.

1997-ci ildə Şəhriyar adına Mədəniyyət evində təşkil edilmiş meyxana müsabiqəsinin laureatı olmuşdur.

2001-ci ildə ANS televiziyasında yayımlanan "De gəlsin" meyxana yarışmasında çempion adını almış və "Qızıl nida" mükafatına layiq görülmüşdür.

2004-cü ildə "De gəlsin" yarışmasında münsif olmuşdur.

2009-cu ildə "Söz qalası" yarışmasında uğurlu şəkildə iştirak etmişdir.

Ərəb əlifbasını mükəmməl bilən, şərq klassik ədəbiyyatını mənimsəyən, Füzuli yaradıcılığına dərindən bələd olan, xüsusilə də "Leyli və Məcnun" əsərinə özünəməxsus şərh verən, bir çox qəzəlləri, meyxanaları ilə məşhurlaşan Aydın Quliyevi xalq "Xırdalanlı" ləqəbi ilə tanımış və sevmişdir.

Aydın Xırdalanlı 23 mart 2019-cu ildə Xırdalanda vəfat etmişdir.

### *Əlamətdir qiyamətdən*

Düşüb qəlbim təravətdən, əlamətdir qiyamətdən,
Sıxılmış dərdi-möhnətdən, əlamətdir qiyamətdən.

Gözüm həsrət qalıb nurə, gəlib qəmli könül şurə,
Yer adlandırığın kurə çıxarsa istiqamətdən,
Əlamətdir qiyamətdən.

Ədalətsizdir hakimlər, riyakar dini xadimlər,
Sıxır məzlumu zalimlər, əsər yoxdur ədalətdən,
Əlamətdir qiyamətdən.

Qul ikən bənzəyir şahə, düşübdü çox xəta rahə,
Xəyanət eylər Allahə, bəşər ölməz xəcalətdən,
Əlamətdir qiyamətdən.

Yatarkən gördüyün röya sübut var başqa bir dünya,
Buləğviyyat deyil əsla, oyan bir xabi-qəflətdən,
Əlamətdir qiyamətdən.

Səhər-axşam, gecə-gündüz dəlildi insanə, sözsüz,
Yatıb-durmaq bu bir möcüz, al ibrət ol əlamətdən,
Əlamətdir qiyamətdən.

Həyat fani, ölüm ani, yazan Həqdi bu fərmani,
Həvayi-nəfs insanı yayındırmış ibadətdən,
Əlamətdir qiyamətdən.

Külək, heyvan, ağac, yarpaq, günəş, ay, həmçinin torpaq
Əyir Allaha baş, ancaq çıxır insan itaətdən,
Əlamətdir qiyamətdən.

Fənafillahi dərk etsən, əgər təqvanı bərk etsən,
Ən adi zərrə dərk etsən, olur bəlli təbiətdən,
Əlamətdir qiyamətdən.

Sənə, Aydın, cahan dardı, bütün dünya günahkardı,
Bu dünyada nə ki vardı, əlamətdir qiyamətdən,
Əlamətdir qiyamətdən.

## *Məhşərdə*

Məni tapşır, İlahi, mən sevən dildarə məhşərdə,
Şəfaət eyləsin, bəlkə, məni bimarə məhşərdə.

Mərizi-eşqə çox baxdı, əlacın bilmədi loğman,
Dedi, bəlkə, məni-bimarə tapılsın çarə məhşərdə.

Gedib əğyarə yar oldu, bir od qoydu mənə canan,
Bu eşqə kaş düşməzdim, düşəydim narə məhşərdə.

Ümidim var, pənahım var, budur arzum İlahimdən,
Məni öz yarımın zülfüylə çəksin darə məhşərdə.

Sənə aşiq olanlar mən kimi çoxdur bu dünyada,
Sayı məlum deyil, ancaq çıxar aşkarə məhşərdə.

Yadında saxla hər vaxtı rəvayətdir peyəmbərdən,
Əlini sevməyən kəslər qalar avarə məhşərdə.

Canın qurban edər hər an Məhəmməd Əhli-beytiyçün,
Yalansa, Aydının siması olsun qarə məhşərdə.

## *Nədir*

Əmrin, ey yer üzünə hökm eliyən şah, nədir,
Sonra öz məqsədini et mənə agah nədir.

O gülün çöhrəsini gördü xəlayiq çaşdı,
Dedilər ki, yer üzərində çıxan mah nədir.

Qoy bütün əhli-bəşər hüsnünə etsin tamaşa,
Qoy bütün küfr eləyənlər görə Allah nədir.

Sənin ah eyləməyin məndən usanmaqdandır,
İndi məndən xəbər al, mən eləyən ah nədir.

Baxdı güzgudə zənəxdanına yar, sordu mənə,
Səncə, Quranidə təsvir olunan çah nədir.

Qanlı göz yaşı töküb söz xəbər alsam ondan,
O qəzəblə deyəcək gah nə var, gah nədir.

Məcnun olsaydı, biyabanə düşərdi Aydın,
Eşqidən bilmədi səhraya gedən rah nədir.

## ***İstəmirəm***

Yardan salma məni ayrı, Xuda, istəmirəm,
Səri-kuyindən onu etmə cüda, istəmirəm.

İstəyim bircə budur lütf elə, xoş söz deginən,
Mən ki səndən nə məhəbbət, nə vəfa istəmirəm.

Dedim, eşq içrə fəqirəm, mənə rəhmin gəlsin,
Dedi, sultanə nə layiqdi gəda, istəmirəm.

Sən mənə cövr elə, canan, dilim-ağzım qurusun,
İşdi, bir dəfə desəm, cövri-cəfa istəmirəm.

Gəl, təbib, aşiqi incitmə Xuda xatirinə,
Çəkirəm dərdi, mənə xoşdu, şəfa istəmirəm.

Bəzmi-eşq içrə, ey Aydın, axı bir can nədi ki
Edirəm sevgili cananə fəda, istəmirəm.

## *Atdım*

Bayramda bir ünvana ümidlə papaq atdım,
Puç oldu ümidim, sora gördüm nahaq atdım.

Asqırdım önə keçməyə, ancaq dala düşdüm,
Çox addımı çox yerdə çoxundan qabaq atdım.

Düşdükcə, bulaşdıqca bataqlıqlara batdım,
Hey çırpınaraq çıxmaq üçün əl-ayaq atdım.

Qozbel ki, məsəl var, düzələr öz qəbirində,
Mümkün də deyil, düz ata bilsin çolaq, addım.

Heç kim məni ram eyləyə bilməzdi, əzəldən
Bir sevgili cananın önündə farağatdım.

Bəxş eyləmiş idi mənə Allah yetərincə,
Öz ruzimə, öz bəxtimə durdum çanaq atdım.

Çoxdandır atıblar mənə çoxdan, xəbərim yox,
Mənsə elə zənn eləmişəm, mən qoçaq atdım.

Mən bir şəcəri-möhnət idim bağı-cahanda,
Göz yaşım ilə şaxələnib qol-budaq atdım.

Olsaydı cavan vaxtı olan indiki ağlım,
Yəqin ki, atardım düşünülmüş uzaq atdım.

Sənsiz ötüşən günləri xatırlamamaqçün,
Ömrün kitabından cırıb üç-dörd vərəq atdım.

Hər dəfə deyirlər mənə, Aydın, daha tərgit,
Hər dəfə cavabım bu olur ki, bayaq atdım.